**“Öz fəaliyyətini qiymətləndirmə”**

**Sorğusu**

| **A. Malların təyinat yerinə çatdırılmasının Ümumdünya Gömrük Təşkilatının müəyyən etdiyi təhlükəsizlik normalarına və standartlarına uyğun olaraq təmin edilməsi imkanının mövcudluğu** | | | | |
|---|---|---|---|---|
| **Alt-kriteriyalar** | **Suallar** | **Bəli (+)** | **Xeyr (-)** | **Əlavə qeydlər** |
| **A.1** Malların təhlükəsizliyinin təmin edilməsi | İdxal-ixrac əməliyyatları, o cümlədən malların yüklənməsi, boşaldılması, daşınması və anbarlaşdırılması zamanı təhlükəsizlik tədbirləri hansı qaydada təşkil edilir və bununla bağlı yazılı təlimatlarınız mövcuddurmu? | | | Şübhəli daşımaları müəyyən etmək və ya aşkarlamaq üçün işçilərin idxal-ixrac sənədlərində olan məlumatların təhlili və şübhəli göndərişlərin müəyyən edilməsi üzrə təlimlərə cəlb olunması tövsiyə olunur. |
| **A.2** İxrac olunan malların təhlükəsizliyi | İxracı nəzərdə tutulan malların təhlükəsiz daşınmasını təmin etmək üçün hansı tədbirlər (hərəkətin izlənməsi, fiziki yoxlamalar, sənədlərin, fotoşəkillərin, videoların eyniləşdirilməsi və s.) görülür? | | | Mütəmadi qaydada nəqliyyat vasitələrinin və konteynerlərin seçmə üsullarla yoxlanılmasının aparılması zəruridir. Yoxlamalar daşımaların həyata keçirildiyi müxtəlif yerlərdə (daşıyıcının ərazisində, yüklənmə yerlərində, sərhədə gedən yolun üzərində və s. ) və vaxtlarda aparılır. Quraşdırılmış plombun yükləmədən sonra çəkilmiş şəkilləri, o cümlədən 7 və ya 8 pilləli konteyner yoxlama protokolu (A.3-ə bax) yoxlamalar zamanı istifadə olunan sənədlərin tərkib hissəsini təşkil edir. |

| | | | | |
|---|---|---|---|---|
| **A.3** Nəqliyyat vasitələri və konteynerlərin təhlükəsizliyi | Nəqliyyat vasitələrinin və konteynerlərin bütövlüyü və təhlükəsizliyi hansı qaydada təşkil edilir və bununla bağlı yazılı təlimatlarınız mövcuddurmu? | | | Nəqliyyat vasitələrinin modifikasiyası üzrə qaçaqmalçılıq hallarının yayılması risklərini nəzərə alaraq konteynerin bütövlüyünü və təhlükəsizliyini təmin etmək üçün nəqliyyat vasitələrinin yoxlanışını təsvir edən yazılı prosedurların olması zəruridir. Yazılı prosedurlar bütün boş konteynerlərdə 7 pilləli və bütün boş soyuducu konteynerlərdə 8 pilləli yoxlamanı əhatə edir:<br><br>• Ön divar;<br>• Sol tərəf;<br>• Sağ tərəf;<br>• Döşəmə;<br>• Tavan;<br>• Daxili və xarici qapılar, o cümlədən qapıların kilidləmə mexanizmləri;<br>• Xarici alt hissə;<br>• Havalandırma korpusu (soyuducu tipli olduqda).<br><br>Konteynerin qapıları, tutacaqları, vint bağlanan hissələri, kilidləmə bölmələri və s. hər hansı plombun vurulmasından əvvəl müdaxilə imkanlarını yaxud uyğunsuzluqları aşkar etmək üçün ətraflı şəkildə yoxlanılır.Bütün daşımaların yoxlanılması prosesləri yoxlama protokoluna (checklist) qeyd edilir və yoxlama protokoluna aşağıdakı məlumatlar daxil olunur:<br><br>• Konteyner və qoşqu nömrəsi;<br>• Yoxlama tarixi;<br>• Yoxlama vaxtı;<br>• Yoxlama aparan işçinin adı;<br>• Yoxlanılan xüsusi sahələr. |

| | | | | |
|---|---|---|---|---|
| **A.4** Eyniləşdirilmə vasitələrinin tətbiqi | Eyniləşdirmə vasitələrinin istifadəsi və onlar üzərində nəzarət proseslərini təsvir edən mexanizmləriniz mövcuddurmu? | | | Eyniləşdirmə vasitələrinin (plomblar, möhürlər, və s.) əldə olunmasını, vurulmasını və onlara nəzarət proseslərini izah edən ətraflı yazılı qaydaların olması vacibdir. Bu qaydalar həmçinin eyniləşdirmə vasitələri dəyişdirildikdə və ya sənəddə plomb nömrəsi səhv olduqda görüləcək addımları da özündə ehtiva edir.<br>Yazılı qaydalarda əks olunur:<br>• Eyniləşdirmə vasitələri olan yerlərə ancaq səlahiyyət verilmiş şəxslərin daxil olması;<br>• Eyniləşdirmə vasitələrinin təhlükəsiz yerlərdə saxlanması;<br>• Yeni alınmış eyniləşdirmə vasitələrinin qeydiyyatının aparılması;<br>• Yalnız təlim keçmiş və səlahiyyətli işçilər tərəfindən eyniləşdirmə vasitələrinin vurulması.<br>Təhlükəsizlik standartlarının tələblərinə əsasən eyniləşdirmə vasitələrinin yoxlanılması ***VVTT prosesinə*** uyğun olmalıdır:<br>• V (view) – Eyniləşdirmə vasitəsinin və bağlanma yerlərinin qaydasında olmasını müəyyənləşdirmək;<br>• V (verify) – Eyniləşdirmə vasitəsinin nömrəsinin sənədlər ilə uyğunluğunu dəqiqləşdirmək;<br>• T (tug) – Eyniləşdirmə vasitəsinin düzgün vurulmasını yoxlamaq;<br>• T (twist) – Eyniləşdirmə vasitəsinin hər bir hissəsini yoxlamaqla onun komponentlərinin açılmadığına yaxud bir-birindən ayrılmadığına əmin olmaq. |
| **A.5** Nəqliyyat vasitələri və konteynerlərin dayanacaq yerləri | Nəqliyyat vasitələri və konteynerlər icazəsiz girişlərin və ya müdaxilələrin qarşısının alınması məqsədilə təhlükəsiz yerlərdə saxlanılırmı? | | | Nəqliyyat vasitələri və konteynerlərin (həm boş, həm də dolu) təhlükəsizliyini təmin etmək məqsədilə onların kənar müdaxilələrdən qorunması vacibdir. İcazəsiz giriş və ya müdaxilələrin qarşısını almaq üçün nəqliyyat vasitələri və konteynerlər təhlükəsiz ərazidə saxlanılmalı və mallar uzun müddət konteynerlərdə qalacağı təqdirdə əlavə mühafizə tədbirləri görülməlidir. |
| **A.6** Sürücüyə dair məlumatlar | Daşıyıcılara məxsus sürücülər barədə məlumatlar əvvəlcədən təqdim olunurmu? | | | Malı çatdıracaq və ya qəbul edəcək sürücü barədə məlumatların idxal-ixrac əməliyyatlarından əvvəl bilinməsi zəruridir. Daşıyıcı şirkət sürücü, onun gəlmə vaxtı və nəqliyyat vasitəsinin nömrəsi barədə məlumatları əvvəlcədən göndərməli və sürücülər müvafiq əraziyə daxil olarkən öz |

| | | | | |
|---|---|---|---|---|
| | | | | şəxsiyyət vəsiqələrini təqdim etməlidirlər. Sürücülərin və nəqliyyat vasitələrinin mütəmadi qeydiyyatının aparılması vacibdir. |
| **A.7** Daşımaların təhlükəsizliyinin təmin edilməsi | Daşımaların təhlükəsizliyini təmin etmək üçün yazılı təlimatlarınız mövcuddurmu və beynəlxalq daşımalarda iştirak edən nəqliyyat vasitələrinizi izləmək üçün müvafiq avadanlıqlardan (Qlobal Mövqetəyinetmə Cihazı - GPS izləmə sistemi və s.) istifadə edirsinizmi? | | | Nəqliyyat vasitələrində təhlükəsizlik yoxlamalarının aparılmasını təmin edən yazılı qaydaların olması vacibdir. Gizli saxlanc yerlərinin olmamasından əmin olmaq üçün qablaşdırmadan və yükləmədən əvvəl bütün daşımalar təhlükəsizlik yoxlamasından keçirilir. Əlavə nəzarətin təmin edilməsi məqsədilə Qlobal Mövqetəyinetmə Cihazı (GPS) kimi ekvivalent texnologiyalardan nəqliyyat vasitələrinin izlənilməsi üçün istifadə edilə bilər. |
| **A.8** Daşımaların yoxlanılması | Daşımalar zamanı şübhəli və ya bəyan olunmamış malların gizlədilməsinin qarşısını almaq üçün hansı təhlükəsizlik tədbirləri görürsüz? | | | Qanuna zidd və ya bəyan edilməmiş malların daşınmasının qarşısını almaq üçün mütəmadi yoxlamaların aparılması vacibdir. Yük maşınları üçün aparılan mütəmadi yoxlamalar aşağıdakıları əhatə edir:<br>**Dartıcı hissədə:**<br>• Bamper və şinlər;<br>• Qapılar, alət bölmələri və kilidləmə mexanizmləri;<br>• Batareya qutusu;<br>• Hava filterlərinin yeri;<br>• Yanacaq çənləri;<br>• Daxili kabin bölmələri;<br>• Dam.<br>**Qoşqu hissədə:**<br>• Ehtiyat təkər sahəsi;<br>• Ön və yanlar;<br>• Bamper və qapılar;<br>• Ön divar;<br>• Sol tərəf;<br>• Sağ tərəf;<br>• Döşəmə;<br>• Tavan və dam;<br>• Daxili, xarici qapılar və kilidləmə mexanizmləri; |

| | | | | |
|---|---|---|---|---|
| | | | | • Alt hissə. |
| **A.9** Təhlükəsizlik və böhran vəziyyətinin idarə olunması ilə bağlı təlimlər | Təchizat zəncirinin təhlükəsizliyi ilə əlaqədar təlimlər keçirirsinizmi? | | | Təlimlərin keçirilməsi təhdid və pozuntuları müəyyənləşdirmək, qarşısını almaq və vaxtında qabaqlayıcı tədbirlər görmək baxımından əhəmiyyətlidir. Müntəzəm olaraq və ildə ən azı bir dəfə təchizat zəncirinin təhlükəsizliyi üzrə təlimlərin keçirilməsi zəruridir. Təlim proqramı SİO fəaliyyəti üçün yerinə yetirilməsi tələb olunan bütün təhlükəsizlik sahələrini əhatə etməlidir. |
| | Sürücülər və digər işçilər nəqliyyat vasitələrinin təhlükəsizliyi ilə bağlı təlimlərə cəlb olunurlarmı? | | | Sürücülər və digər aidiyyəti işçilər nəqliyyat vasitələrinin təhlükəsizliyi və yoxlanışı üzrə təlimlərdən keçməlidirlər. Təlimlərin mövzuları nəqliyyat vasitələrinin konstruksiyasının dəyişdirilməsini nəzərdə tutan qaçaqmalçılıq sxemlərinin geniş yayılması halları və ciddi konstruksiya qüsurlarını aşkar etmək barədə məlumatları da əhatə etməlidir. |
| | Böhran vəziyyətinin idarə edilməsi üzrə dövri təlimlər keçirilirmi? | | | İşçilər böhran vəziyyətlərinin (kiberhücum, yanğın, zəlzələ və s.) idarə olunması ilə əlaqədar təlimlərə cəlb olunmalıdır. |
| **B. Gömrük və vergi qanunvericiliyinin tələblərinə riayət edilməsi** | | | | |
| **Alt-kriteriyalar** | **Suallar** | **Bəli (+)** | **Xeyr (-)** | **Əlavə qeydlər** |
| **B.1** Gömrük qaydaları əleyhinə qanun pozuntusu haqqında məlumatlar | Fəaliyyətiniz dövründə hər hansı hüquqpozma faktı olubmu? | | | Səlahiyyətli İqtisadi Operator (SİO) statusunun verilməsi ilə bağlı bütün faktlar (qəsdən və ya təkrar hüquqpozma, maliyyə pozuntusu və s.) gömrük orqanı tərəfindən nəzərdən keçirilir. Gömrük orqanları tərəfindən yoxlanılacaq pozuntu hallarına dair bəzi nümunələr: qaçaqmalçılıq, saxtakarlıq (qəsdən yanlış təsnifetmə, gömrük dəyərinin azaldılması və ya artırılması, gömrük ödənişlərindən yayınma və s.), əmtəə nişanından qanunsuz istifadə, mütəşəkkil cinayətkarlıqda iştirak, birbaşa və ya dolayı terrorizm ilə bağlı fəaliyyətlərə qoşulma və s. |
| | SİO statusunun verilməsindən imtina olunması, müvəqqəti dayandırılması və ya ləğv olunması halları olubmu? | | | Əvvəlki müraciətlərin tarixləri, həmçinin imtina və ya müvəqqəti dayandırılma hallarına dair səbəblər qeyd olunur. |
| **B.2** Gömrük və vergi borcunun ödənilməsi | Ödəmə müddəti ötürülmüş gömrük və vergi borcunuz mövcuddurmu? | | | Ətraflı məlumatlar təqdim edilir. |

| | | | | |
|---|---|---|---|---|
| **B.3** Lisenziya və icazələr | Lisenziya və ya icazə tələb olunan mallara dair idxal-ixrac əməliyyatları həyata keçirirsinizmi? | | | Xarici ticarət zamanı lisenziya və ya icazə tələb olunan malların siyahısı, habelə sözügedən mallara dair səlahiyyətli orqanlar tərəfindən verilən müvafiq təsdiqedici sənədlər (lisenziya və icazə) gömrük orqanlarına təqdim edilir. |
| **B.4** Gömrük təmsilçiliyi | Gömrük rəsmiləşdirilməsi ilə əlaqədar əməliyyatları birbaşa olaraq öz adınızdan həyata keçirirsinizmi? | | | Dolayı gömrük təmsilçiliyi xidmətlərindən istifadə olunan şirkət(lər) barədə məlumatlar təqdim edilir. |
| | Dolayı gömrük təmsilçiliyi xidmətlərindən istifadə edirsinizmi? | | | |
| | Dolayı gömrük təmsilçiliyi fəaliyyəti göstərirsinizmi? | | | Ətraflı məlumatlar qeyd olunur. |
| **B.5** Ticarət tərəfdaşlarının etibarlılığı | Ticarət tərəfdaşlarının etibarlılığının qiymətləndirilməsini həyata keçirirsinizmi? | | | Yeni ticarət tərəfdaşlarının risk əsaslı yoxlanılması və mövcud tərəfdaşların monitorinqinin aparılması məqsədilə yazılı qaydaların olması vacibdir. Təhlükəsizlik tələblərinə uyğunluğu yoxlamaq üçün ticarət tərəfdaşlarının təhlükəsizlik qiymətləndirilməsi aparılır. Aşağıda qeyd olunan nümunələr ticarət tərəfdaşının etibarlılığının müəyyən edilməsində kömək ola bilər:<br>• hüquqi ünvanın və həmin ünvanda fəaliyyət göstərmə müddətinin müəyyənləşdirilməsi;<br>• internet resurslarından istifadə etməklə şirkət və onun fəaliyyət istiqamətləri barədə araşdırmanın aparılması;<br>• biznes reputasiyasının yoxlanılması.<br><br>Yoxlanılmalı olan ticarət tərəfdaşlarına nümunə olaraq, gömrük təmsilçiləri, istehsalçılar, təchizatçılar, satıcılar, xidmət və logistika təminatçıları göstərilə bilər. |

| | | | | |
|---|---|---|---|---|
| **B.6** Gömrük qanunvericiliyi ilə əlaqədar təlimlər | Gömrük qanunvericiliyinə dair təlimlər keçirilirmi və ya iştirak edirsinizmi? | | | Gömrük məsələləri üzrə əməliyyatlarda iştirak edən işçilərə mütəmadi qaydada mütəxəssislərin dəvət olunması ilə təlimlərin keçirilməsi zəruridir. |
| **C. Gömrük nəzarəti baxımından əhəmiyyət kəsb edən kommersiya və nəqliyyat sənədlərinin idarə edilməsinə dair qənaətbəxş sistemin olması** | | | | |
| **Alt-kriteriyalar** | **Suallar** | **Bəli (+)** | **Xeyr (-)** | **Əlavə qeydlər** |
| **C.1** Maliyyə hesabatlılığı | Maliyyə uçotunu milli və ya beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq aparırsınızmı? | | | Maliyyə-uçot siyasəti barədə ətraflı məlumatlar qeyd olunur. |
| **C.2** Kommersiya məlumatlarının qeydiyyatı və mühasibatlıq sistemləri | Gömrük orqanına malların idxalı və ixracı üzrə audit yoxlamalarını həyata keçirməyə imkan verən kommersiya məlumatlarının qeydiyyatı və mühasibatlıq sistemləriniz mövcuddurmu? | | | Audit proseslərinin aparılması üçün gömrük orqanlarına kommersiya məlumatlarının qeydiyyatı və mühasibatlıq sistemlərinə giriş imkanının yaradılması zəruri şərtlərdəndir. Əlavə olaraq, daxili audit sisteminin mövcudluğu gömrük orqanına aidiyyəti məlumatların təhlilini, malların hərəkətini, maliyyə proseslərini, həmçinin idxal və ixrac əməliyyatları üzrə digər bütün fəaliyyətləri izləmə imkanı yaradır. |
| | Kommersiya məlumatlarının qeydiyyatı və mühasibatlıq sistemləri vasitəsilə idxal və ixrac məlumatlarının təhlükəsiz şəkildə toplanması, arxivləşdirilməsi, idarə edilməsi, mühafizəsi, bütövlüyü, hesabatlığı və təqdim edilməsi imkanları mövcuddurmu? | | | Uçot sistemlərinin aşağıdakı tələblərə uyğun qurulması tövsiyə olunur:<br>• qanunvericiliyin tələbləri nəzərə alınmaqla gömrük orqanlarına sonradan təqdim olunacaq məlumatların düzgün formada arxivləşdirilməsi;<br>• girişinə icazə verilməyən şəxslərin məlumatlara əlçatanlılığının qarşısını almaq məqsədilə təhlükəsizlik standartlarına cavab verən müasir informasiya texnologiyalarının tətbiqi;<br>• kommersiya məlumatlarının ehtiyat nüsxələrinin saxlanması üçün serverlərin olması. |

| | | | | |
|---|---|---|---|---|
| **C.3** Daxili nəzarət sistemi | Daxili nəzarət sistemləriniz mövcuddurmu? | | | Daxili nəzarət sisteminin tətbiqinin 4 (dörd) əsas məqsədi var:<br>• aktivlərin qorunması;<br>• maliyyə hesabatlarının etibarlılığının təmin edilməsi;<br>• operativliyin təmin olunması;<br>• əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi.<br>Səmərəli daxili nəzarət sistemi gömrük məqsədləri üçün aşağıdakıları təmin edir:<br>• məlumatların tam və dəqiq olmasını;<br>• ehtiyatsızlıqdan baş verən nöqsanların və ya qəsdən saxtalaşdırma hallarının minimuma endirilməsini;<br>• sahibkarlıq fəaliyyətinə sistemli nəzarətin mövcud olmasını;<br>• maliyyə hesabatlarının etibarlılığını;<br>• daxili və xarici auditin mövcud olmasını;<br>• əməliyyatların gömrük qanunvericiliyin tələblərinə uyğun aparılmasını. |
| | Gömrük fəaliyyətinizə dair audit yoxlaması aparılıbmı? | | | Hərtərəfli audit tədbirlərinin mövcudluğu gömrük işi ilə əlaqəli bütün sənədlərin, məlumatların, əməliyyatların və fəaliyyətlərin yoxlanılması zamanı çatışmazlıqların müəyyən edilməsində mühüm rol oynayır. |
| **C.4** Nəqliyyat sənədlərinin idarəedilməsi | Nəqliyyat sənədlərinin mərkəzləşdirilmiş idarəetmə və reyestr sistemi mövcuddurmu? | | | Ətraflı məlumatlar qeyd olunur. |

**D. Gömrük ödənişlərini və digər ödənişləri həyata keçirmək üçün maliyyə imkanlarının olması**

| Alt-kriteriyalar | Suallar | Bəli (+) | Xeyr (-) | Əlavə qeydlər |
|---|---|---|---|---|
| **D.1** Etibarlı maliyyə imkanları | Əvvəlki dövr üçün maliyyə hesabatlarını təqdim edə bilərsinizmi? | | | Audit yoxlamaları zamanı gömrük orqanına əvvəlki dövr üçün maliyyə hesabatları təqdim olunur. |

| | | | | |
|---|---|---|---|---|
| **D.2** Müflisləşmə və iflas | Fəaliyyətinizdə nə zamansa müflisləşmə və iflas baş veribmi? | | | Ətraflı məlumatlar və müvafiq sənədlər gömrük orqanına təqdim olunur. |
| | Cari fəaliyyətinizdə müflisləşmə və ya iflas ehtimalı mövcuddurmu? | | | |
| **D.3** Maliyyə öhdəliyi | Gömrük və vergi ödənişlərinin ödənilməsi ilə bağlı tərəfinizdən maliyyə öhdəlikləri yerinə yetirilirmi? | | | Maliyyə öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı təminatdan istifadə edildiyi təqdirdə, onun etibarlılığının müəyyən edilməsi məqsədilə gömrük orqanı tərəfindən əlavə yoxlamalar aparılır. |
| **E. Fəaliyyət göstərdiyi sahədə azı 2 (iki) il təcrübəsinin olması** | | | | |
| **Alt-kriteriyalar** | **Suallar** | **Bəli (+)** | **Xeyr (-)** | **Əlavə qeydlər** |
| **E.1** İdxal-ixrac fəaliyyəti | Son 2 (iki) il ərzində idxal-ixrac əməliyyatları həyata keçirmisinizmi? | | | Ətraflı məlumatlar qeyd olunur. |
| **E.2** Gömrük əməliyyatları | Son 2 (iki) il ərzində əsasən hansı gömrük əməliyyatları ilə məşğul olmusunuzmu? | | | Ətraflı məlumatlar qeyd olunur. |
| **E.3** Bilik və bacarıqlar | Gömrük qanunvericiliyinin mənimsənilməsi ilə bağlı təlimlər keçirirsinizmi? | | | Ətraflı məlumatlar qeyd olunur. |
| **F. Müvafiq təhlükəsizlik və mühafizə standartlarının tətbiqi imkanlarının olması** | | | | |
| **Alt-kriteriyalar** | **Suallar** | **Bəli (+)** | **Xeyr (-)** | **Əlavə qeydlər** |
| **F.1** Tikililərin təhlükəsizliyi və mühafizəsi | Tikililərin təhlükəsizliyi və mühafizəsi ilə bağlı | | | Tikililərə dair təhlükəsizlik yoxlamalarının aparılmasını təmin etmək üçün yazılı qaydaların mövcudluğu vacibdir. İcazəsiz giriş və ya müdaxilələrə qarşı mühafizəni təmin etmək məqsədilə yüksək riskli |

| | | | | |
|---|---|---|---|---|
| | təlimatlarınız mövcuddurmu? | | | ərazilərdə (giriş-çıxış qapıları, binanın pəncərələri, yanğın və siqnalizasiya avadanlıqları, hasarlar, xarici işıqlandırma sahələri, videomüşahidə avadanlıqları və s.) dövri yoxlamalar aparılmalıdır. |
| **F.2** Giriş-çıxış | Binaların giriş və çıxışları mühafizə olunurmu? | | | Nəqliyyat vasitələrinin və ya işçi heyətin daxil olduğu/çıxdığı qapılar (həmçinin digər çıxış nöqtələri, məsələn qapısı olmayan obyektlərə girişlər) mühafizəçilər ilə təmin edilməlidir. Giriş-çıxış qapılarının minimum sayda olması tövsiyə olunur. |
| **F.3** İşıqlandırma | Müvafiq ərazilərdə kifayət qədər işıqlandırma mövcuddurmu? | | | Aşağıdakı ərazilərdə yetərli işıqlandırmanın olması zəruridir:<br>• giriş və çıxışlar;<br>• saxlanc yerləri;<br>• hasarlar;<br>• dayanacaq yerləri. |
| **F.4** Kamera müşahidə sistemi | İcazəsiz girişlərin qarşısını almaq üçün müvafiq kamera müşahidə sistemləriniz mövcuddurmu? | | | Həssas ərazilərin və giriş nöqtələrinin təhlükəsizliyini təmin etmək üçün aşağıda qeyd olunan sahələrdə kamera müşahidə sistemlərinin quraşdırılması zəruridir:<br>• giriş və çıxışlar;<br>• qeydiyyat zonası;<br>• sənədlərin saxlandığı bölmələr;<br>• server otaqları;<br>• yükləmə və boşaltma əraziləri;<br>• saxlanc yerləri;<br>• hasarlar;<br>• dayanacaq yerləri;<br>• digər həssas ərazilər. |
| **F.5** Anbar sahəsi | Anbarlara kənar şəxslərin girişini istisna edən infrastrukturunuz mövcuddurmu? | | | İcazəsiz girişlərin qarşısını alan fiziki infrastruktur maneələrinin quraşdırılması zəruridir. |
| **F.6** Kilidləmə cihazları | Bütün daxili və xarici pəncərə və qapılar kilidləmə cihazları ilə təchiz olunubmu? | | | Riskdən asılı olaraq daxili və xarici pəncərələr, həmçinin qapılar kilidləmə cihazları ilə təchiz edilməlidir. |

| | | | | |
|---|---|---|---|---|
| **F.7** İşçilərin giriş-çıxışına nəzarət | İşçilərin giriş-çıxışına nəzarət həyata keçirilirmi? | | | Əməkdaşların giriş-çıxışına nəzarət edilməsinə dair yazılı prosedur qaydalarının, o cümlədən işçi heyətin identifikasiyasına dair sistemin olması vacibdir. 50-dən çox işçisi olan bir şirkət üçün identifikasiya sisteminin mövcudluğu tələb olunur. Həmçinin həssas ərazilərə giriş işçi heyətin tutduğu vəzifələrə əsasən məhdudlaşdırılmalıdır. |
| **F.8** Ziyarətçilərə nəzarət sistemi | Ziyarətçilərin qeydiyyatı prosesi həyata keçirilirmi? | | | Ziyarətçilərə nəzarətlə bağlı yazılı qaydaların olması vacibdir. Prosedur qaydaları aşağıdakıları əhatə edir:<br>• ziyarətçilər gəldikdən sonra şəxsiyyəti təyin edən müvafiq sənədin tələb olunması;<br>• ziyarət səbəbinə dair təfərrüatların qeydiyyatının aparılması;<br>• bütün ziyarətçilərin müşayiəti və onlara müvəqqəti giriş vəsiqələrinin verilməsi.<br>Qeydiyyat jurnalında aşağıdakılar olmalıdır:<br>• ziyarətçinin adı, soyadı və əlaqə məlumatları;<br>• gəliş tarixi və saatı;<br>• şəxsiyyəti təyin edən müvafiq sənədin nömrəsi və fin kodu;<br>• ziyarətin bitiş vaxtı. |
| **G. İnformasiya mübadiləsini lazımi səviyyədə təmin edən texniki bazasının olması** | | | | |
| **Alt-kriteriyalar** | **Suallar** | **Bəli (+)** | **Xeyr (-)** | **Əlavə qeydlər** |
| **G.1** Məlumatların mübadiləsi | Gömrük orqanları ilə mütəmadi məlumat mübadiləsi aparırsınızmı? | | | Ətraflı məlumatlar qeyd olunur. |
| **G.2** Mübadilə mexanizmi | Məlumatların mübadiləsi hansı qayda və vasitələrlə həyata keçirilir? | | | Ətraflı məlumatlar qeyd olunur. |
| **G.3** Məlumatların təhlükəsizliyi | Məlumatların mübadiləsi zamanı informasiya təhlükəsizliyi ilə bağlı hansı tədbirlər görürsünüz? | | | Ətraflı məlumatlar qeyd olunur. |